

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

Qəzet 1921-ci ildən çıxır

# ŞƏRQ qapısı

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 36 (21.446)

24 fevral 2016-cı il, çərşənbə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 23-də İran İslam Respublikasına rəsmi səfərə gedib.

Fevralın 23-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Tehranda rəsmi qarşılanma mərasimi olub.

Rəsmi qarşılanma mərasimi başa çatdıqdan sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və İran İslam Respublikasının Prezidenti Həsən Ruhaninin təkbətək görüşü keçirilib.

Təkbətək görüş başa çatdıqdan sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və İran İslam Respublikasının Prezidenti Həsən Ruhaninin nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə danışıqları olub.

Fevralın 23-də geniş tərkibdə görüş başa çatdıqdan sonra Azərbaycan Prezidenti İlham Əliyevin və İran Prezidenti Həsən Ruhaninin iştirakı ilə sənədlərin imzalanması mərasimi olub.

Sənədlərin imzalanması mərasimi başa çatdıqdan sonra İran İslam Respublikasının Prezidenti Həsən Ruhani və Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mətbuata bəyanatlarla çıxış ediblər.

Fevralın 23-də İran İslam Respublikasının Prezidenti Həsən Ruhani tərəfindən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin şərəfinə rəsmi qəbul təşkil edilib.

## Xocalı faciəsi qurbanlarının xatirəsi anılıb

***Yeni Azərbaycan Partiyası Ordubad Rayon Təşkilatında Xocalı soyqırımının 24-cü ildönümü münasibətilə keçirilən "Əsrin faciəsi" adlı tədbirdə əvvəlcə faciə qurbanlarının xatirəsi bir dəqiqəlik sükutla yad olunub. Yığıncaqda çıxış edən təşkilatın sədri, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı Qürbət Rzayev Xocalı soyqırımından, ermənilərin zaman-zaman azərbaycanlılara qarşı törətdiyi vəhşiliklərdən danışıb.***

Vurğulanıb ki, 1992-ci il fevralın 25-dən 26-na keçən gecə erməni daşnaklarının terrorçu qrupu o zaman Xankəndidə yerləşən keçmiş sovet imperiyasının 366-cı motoatıcı alayının iştirakı ilə Xocalı şəhərini yerlə yeksan edib. O gecə erməni qaniçənləri tərəfindən 613 nəfər qətlə yetirilib ki, onlardan 63 nəfəri uşaq, 106 nəfəri qadın, 70 nəfəri isə qocalar olub. Yaralanan 487 nəfərdən 76 nəfəri uşaqlar idi. Faciə zamanı 8 ailə tamamilə məhv edilib, 25 uşaq hər iki valideynini, 130 uşaq isə valideynlərindən birini itirib. Bu qanlı aksiya zamanı şəhərdə yaşayan əhalinin 1275 nəfəri erməni faşistləri tərəfindən əsir götürülüb. 150 nəfər Xocalı sakinindən bu günə kimi xəbər yoxdur.

Bildirilib ki, Xocalı faciəsi xalqımızın milli azadlıq ruhuna qarşı misligörünməmiş bir təcavüz olmaqla yanaşı, həm də tariximizin qəhrəmanlıq səhifəsidir. O gecə Azərbaycan xalqı özünün yenilməzliyini, qəhrəmanlığını, Vətənə, torpağa sədaqətini, müstəqillik və azadlıq uğrunda mübarizə əzmini bütün dünyaya nümayiş etdirib. Bu faciədən danışarkən o vaxt ölkəyə rəhbərlik edənlərin məsuliyyətsizliyini xüsusi qeyd etmək lazımdır.

Qeyd olunub ki, xalqımızın dahi oğlu Heydər Əliyev Azərbaycanda siyasi hakimiyyətə qayıtdıqdan sonra bu faciəyə hüquqi-siyasi qiymət verilib.

Bu gün Azərbaycan dövləti erməni şovinistlərinin azərbaycanlılara qarşı törətdikləri cinayətlər, o cümlədən Xocalı soyqırımı haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Xocalı faciəsinin soyqırımı kimi tanınması üçün məqsədyönlü fəaliyyət göstərir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev torpaqlarımızın azad olunması, qaçqın və məcburi köçkünlərimizin öz doğma yurdlarına qayıtması, Ermənistan hərbi birləşmələrinin ərazilərimizdən qeyd-şərtsiz çıxarılması istiqamətində ardıcıl iş aparır. Lakin ölkə başçısının dəfələrlə bəyan etdiyi kimi danışıqlar prosesi belə davam edə bilməz. Qürbət Rzayev ölkə başçısının bu sözlərini xatırladıb: ***"Biz azərbaycanlılara qarşı ermənilərin törətdiyi təcavüz və soyqırımın dünya dövlətlərinin parlamentləri, beynəlxalq təşkilatları tərəfindən tanınmasına və pislənməsinə çalışmalıyıq... Biz sülh şəraitində yaşamaq, ölkəmizi inkişaf etdirmək, tarixi ədalətin və həqiqətin bərpa olunmasını, işğal və soyqırımı siyasəti həyata keçirənlərin tanınmasını və ifşa edilməsini istəyirik".***

Tədbirdə Yeni Azərbaycan Partiyası Ordubad Rayon Təşkilatının təlimatçısı Uğur İsgəndərov, təşkilatın Heydər Əliyev adına Gənclər Birliyinin sədri Elvin Məmmədov, rayon Təhsil Şöbəsinin müdiri Samir Zeynalov çıxış ediblər.

Çıxışlarda bildirilib ki, Xocalı faciəsi ilə əlaqədar son illər dünya ictimaiyyətinə ətraflı məlumat verilməsi istiqamətində ciddi tədbirlər həyata keçirilib. Artıq dünyanın bir neçə ölkəsinin parlamentlərində Xocalı faciəsi soyqırımı kimi tanınıb.

## Naxçıvan Muxtar Respublikası Vəkillər Kollegiyasının üzvlüyünə qəbul üçün test imtahanı keçirilib

***Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiyanın test mərkəzində Naxçıvan Muxtar Respublikası Vəkillər Kollegiyasının üzvlüyünə qəbul üçün elan edilmiş müsabiqənin test imtahanı keçirilib.***



Müsabiqəyə sənəd təqdim etmiş 24 namizəddən 19-u test imtahanında iştirak edib. Əvvəlcə namizədlərə slayd vasitəsilə imtahan və test proqramından istifadə qaydaları haqqında məlumat verilib. İmtahanda namizədlərə ixtisas üzrə 80, məntiqi təfəkkürün yoxlanılması üzrə 20 sual olmaqla, 100 sual təqdim edilib, sualları cavablandırmaq üçün 3 saat vaxt ayrılıb. Test imtahanında obyektivliyin və şəffaflığın tam təmin edilməsi məqsədilə imtahanın videoçəkilişi aparılıb. İmtahan bitdikdən sonra namizədlərə cavab kartı və test imtahanının nəticəsinə dair arayış təqdim edilib. Test imtahanında Naxçıvan Dövlət Universitetinin Hüquq fənləri kafedrasının, Naxçıvan Muxtar Respublikası Vəkillər Kollegiyasının və Azərbaycan Respublikası Tələbə Qəbulu üzrə Dövlət Komissiyasının Naxçıvan Muxtar Respublikası Regional Bölməsinin əməkdaşları müşahidəçi kimi iştirak ediblər.

Naxçıvan Muxtar Respublikası Vəkillər Kollegiyasından aldığımız məlumata görə, 50 və ya ondan yuxarı bal toplayan namizədlər ikinci mərhələyə keçəcəklər. Bu mərhələdə müvəffəqiyyət qazanan namizədlər Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Ədliyyə Akademiyasında 20 günlük icbari təlimə göndəriləcəklər. Hər üç mərhələni keçmiş namizədlərin Naxçıvan Muxtar Respublikası Vəkillər Kollegiyasına üzvlük məsələsi kollegiyanın Rəyasət Heyətində müzakirə olunaraq müvafiq qərar veriləcəkdir.

## Daxili bazarın tələbatı yerli məhsullar hesabına ödənilir



***Naxçıvan Muxtar Respublikasında əhalinin kənd təsərrüfatı məhsullarına olan tələbatının yerli istehsal hesabına ödənilməsi istiqamətində kompleks tədbirlər həyata keçirilir. "2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında meyvəçiliyin və tərəvəzçiliyin inkişafı üzrə Dövlət Proqramı"nın əsas hədəflərindən biri özəl sektorun inkişafı hesabına yerli istehsalın artırılmasıdır.***

Muxtar respublikada sahibkarlığın yeni mərhələyə qədəm qoyması nəticəsində ənənəvi fəaliyyət sahələrinə yeni innovasiyaların tətbiqi genişlənir. Belə gəlirli sahələrdən biri də istixana kompleksləridir. Bu məqsədlə davamlı tədbirlər həyata keçirilir, sahibkarlara dövlət maliyyə dəstəyi göstərilir, yeni istixana kompleksləri yaradılır.

Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyindən aldığımız məlumata görə, hazırda Naxçıvan şəhəri, Şərur, Babək, Culfa, Kəngərli, Ordubad rayonlarında olmaqla, regionun müxtəlif yerlərində 116 min 392 kvadratmetr sahədə 20 istixana təsərrüfatı fəaliyyət göstərir. Bunların 101 min 476 kvadratmetri dövlət maliyyə dəstəyi hesabına, 12 min 416 kvadratmetri şəxsi vəsaitlər hesabına yaradılan müasir istixana kompleksləridir. Bu təsərrüfatlarda 2015-2016-cı mövsüm ilində pomidor, xiyar, badımcan, bibər, limon, çiyələk, göbələk, göyərti, gül kələm, kahı, brokoli və şitil əkini həyata keçirilib.

2015-2016-cı mövsüm ilində istixana komplekslərində yetişdirilən 1733,1 ton məhsul satışa çıxarılıb. Bunun 1048,9 tonunu pomidor, 653,4 tonunu xiyar, 5,7 tonunu göbələk, 16,2 tonunu badımcan, 7,4 tonunu bibər, 1,5 tonunu göyərti təşkil edib.

Əhalinin qış aylarında faraş tərəvəz məhsullarına olan tələbatının ödənilməsi üçün müasir istixana komplekslərinin qurulması və mövcud sahələrin genişləndirilməsi istiqamətində Sahibkarlığa Kömək Fondunun vəsaiti hesabına 2000-2015-ci illər ərzində sahəsi 101 min 476 kvadratmetr olan istixanaların qurulmasına 4 milyon 540 min 500 manat güzəştli kredit verilib. Təkcə 2015-ci il ərzində sahəsi 8 min 906 kvadratmetr olan 7 istixananın yaradılması başa çatdırılıb.

Bu istiqamətdə işlər cari ildə də davam etdirilir. Belə ki, 2016-cı ilin ötən dövrü ərzində Babək rayonunun Yuxarı Uzunoba kəndində fiziki şəxs Murad Cabbarov tərəfindən 3500 kvadratmetr ərazidə istixana təsərrüfatının qurulması başa çatdırılıb. Şərur rayonunun Qarxun kəndində fiziki şəxs Mənsur Abdinov tərəfindən 1800 kvadratmetr ərazidə istixana təsərrüfatının yaradılması istiqamətində işlər davam etdirilir.

***Daşınmaz əmlakın dövlət qeydiyyatı ilə bağlı prosedurların sadələşdirilməsi, məlumatların dəqiqliyinin təmin edilməsi, elektron xidmətlərin tətbiqi, torpaqların elektron uçotunun aparılması və elektron kadastr xəritələrinin hazırlanması məqsədilə 2015-ci ilin avqust ayından etibarən Naxçıvan Muxtar Respublikasının Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Komitəsinin tabeliyində olan Dövlət Yerquruluşu, Geodeziya və Xəritəçəkmə Layihə İnstitutu tərəfindən muxtar respublikanın rayonları üzrə həyətyanı torpaq sahələrinin dəqiqləşmə-ölçü işlərinə başlanılıb.***

## Elektron kadastr xəritələrinin hazırlanması davam etdirilir

Bunun üçün 3 mobil qrup yaradılaraq müasir geodeziya-ölçü avadanlıqları ilə təmin olunub. 1381-i Babək rayonunun Babək qəsəbəsi, 683-ü Sirab kəndi, 836-sı Qahab kəndi, 169-u Naxışnərgiz kəndi, 181-i Xəlilli kəndi, 165-i Yuxarı Uzunoba kəndi, 191-i Aşağı Uzunoba kəndi üzrə olmaqla, ümumilikdə, 3606 həyətyanı torpaq sahəsi ölçülüb. Əldə olunan materiallar və ilkin baza məlumatları əsasında ölçülmüş həyətyanı torpaq sahələrinin kameral şəraitdə uçotu dəqiqləşdirilib, elektron kadastr xəritələrinin hazırlanmasına başlanılıb. Hazırda Şərur rayonunun Mahmudkənd və Babək rayonunun Vayxır kəndlərində həyətyanı torpaq sahələrinin sərhədlərinin dəqiqləşdirilməsi məqsədilə geodeziya ölçmələri davam etdirilir.

Qeyd edək ki, dəqiqləşdirmə işlərinin həyata keçirilməsi torpaq sahələrindən və daşınmaz əmlak obyektlərindən daha səmərəli istifadə edilməsinə əlverişli şərait yaradacaq. Daşınmaz əmlaklarla bağlı bütün məlumatlar – onların yeri, koordinatları və ölçüləri tamamilə dəqiqləşəcək və xəritəyə köçürüləcək, nəticədə, torpaq mübahisələrinin həlli və əmlakların qeydiyyatı sadələşəcək. Bu tədbirlərin həyata keçirilməsi nəticəsində dövlətin, bələdiyyələrin və torpaq mülkiyyətçilərinin əmlakına dair elektron kadastr məlumat bazası və elektron kadastr xəritələri yaradılacaq, torpaq islahatı zamanı torpaq sahələri üzərində atributların formalaşması ilə bağlı yaranmış problemlər aradan qaldırılacaqdır.

**Xəbərlər şöbəsi**

*24 fevral Naxçıvan Muxtar Respublikası Dövlət Gömrük Komitəsinin yarandığı gündür*

# Muxtar respublikanın gömrük orqanları müasir infrastruktura malikdir

***Ümummilli liderimiz Heydər Əliyevin Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri işləyərkən, 1992-ci il fevralın 24-də qəbul etdiyi qərarla Naxçıvan Muxtar Respublikası Dövlət Gömrük Komitəsi yaranmışdır. Bu dövrdə ulu öndərimizin xüsusi dövlətçilik səriştəsi və şəxsi nüfuzu sayəsində İran ərazisindən keçməklə Azərbaycanın digər bölgələri ilə nəqliyyat əlaqəsinin qurulması, Sədərək-Dilucu və Şahtaxtı-Poldaşt sərhəd-keçid məntəqələrinin yaradılması blokadada olan Naxçıvanın böhranlı vəziyyətdən çıxarılmasında, gömrük və ticarət əlaqələrinin inkişafında mühüm rol oynamışdır.***



Naxçıvan Şəhər Gömrük İdarəsi

Dövlətimizin hərtərəfli diqqət və qayğısı ilə böyük inkişaf yolu keçən muxtar respublikanın gömrük sistemi bu gün yüksək maddi-texniki bazası və müasir idarəetmə modeli ilə seçilir. Son illər qonşu Türkiyə və İran İslam respublikaları ilə imzalanmış sazişlər, həyata keçirilən rəsmi səfərlər sayəsində xarici əlaqələrin əhatə dairəsi xeyli genişlənmişdir. Şahtaxtı-Poldaşt sərhəd-keçid məntəqəsinə beynəlxalq statusun verilməsi, Sədərək və Culfa gömrük sərhəd-buraxılış məntəqələrində 24 saatlıq, Şahtaxtı gömrük sərhəd-buraxılış məntəqəsində 12 saatlıq iş rejiminin tətbiq edilməsi gömrük işi sahəsindəki hərtərəfli inkişafın əyani göstəricisidir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin muxtar respublikada gömrük xidmətinin müasir tələblər səviyyəsində qurulması istiqamətində həyata keçirdiyi ardıcıl tədbirlər bu baxımdan mühüm əhəmiyyət kəsb edir. Son illər gömrük infrastrukturunun yenidən qurulması və maddi-texniki bazanın müasir tələblər səviyyəsində formalaşdırılması istiqamətində mühüm addımlar atılmış, 2001-ci ildə Naxçıvan Şəhər Gömrük İdarəsinin və 2004-cü ildə Naxçıvan Hava Nəqliyyatında Gömrük İdarəsinin, 2012-ci ildə isə Naxçıvan Gömrük Ekspertiza İdarəsinin və Gömrük Mühafizə Xidmətinin yaradılması nəticəsində muxtar respublikanın gömrük orqanlarının strukturu daha da genişləndirilmişdir. Beynəlxalq standartlar və yerli şərait nəzərə alınmaqla 2007-ci ildə Culfada, 2009-cu ildə isə Şahtaxtıda müasir gömrük kompleksləri tikilib istifadəyə verilmiş, 2012-ci ilin may ayında ölkə başçısı cənab İlham Əliyevin iştirakı ilə Naxçıvan Şəhər Gömrük İdarəsi üçün yeni kompleksin açılışı olmuş, müasir gömrük laboratoriyası qurulmuşdur.

Naxçıvan gömrük sisteminin müasirləşdirilməsi istiqamətində həyata keçirilən tədbirlərin davamı olaraq, 2014-cü ildə Naxçıvan Hava Nəqliyyatında Gömrük İdarəsi üçün, 2015-ci ildə isə "Naxçıvanterminalkompleks" Birliyi üçün yeni inzibati bina və anbar kompleksi tikilib istifadəyə verilmişdir. Hazırda Sədərək sərhəd-keçid məntəqəsi üçün yeni kompleks yaradılır. Müasir gömrük infrastrukturunun yaradılması Naxçıvanın tranzit potensialını artırmışdır.



*Culfa rayonunda "Naxçıvanterminalkompleks" Birliyinin inzibati binası və anbar kompleksi*

Bu gün muxtar respublika gömrük sistemində ən müasir standartlar tətbiq olunur. Culfa, Şahtaxtı və Sədərək sərhəd-keçid məntəqələrində quraşdırılan X-Ray tipli rentgen-nəzarət qurğuları yüklərə gömrük nəzarətini daha dəqiq və operativ həyata keçirməyə imkan verir. Bu da qaçaqmalçılıq hallarının qarşısının alınmasına, xarici ticarətin inkişaf etdirilməsinə, idxal-ixrac prosedurunun sadələşdirilməsinə, ümumilikdə, gömrük işinin keyfiyyətinin və xidmətin səviyyəsinin yüksəldilməsinə imkan verir. Bundan başqa, gömrük orqanlarının gənc kadrlarla komplektləşdirilməsi, əməkdaşların dünyanın müxtəlif ölkələrində keçirilən seminar və kurslarda iştirakının təmin olunması, beynəlxalq təcrübənin öyrənilməsi yaradılan şəraitdən maksimum şəkildə bəhrələnməyə və xidmətin səmərəli təşkilinə şərait yaradır.

Gömrük işinin səmərəliliyini artırmaq məqsədilə informasiya-kommunikasiya texnologiyalarının imkanlarından da geniş istifadə olunur. Gömrük sərhəd-buraxılış məntəqələrindən keçirilən malların və nəqliyyat vasitələrinin qeydiyyatı və yoxlanılması "bir pəncərə" prinsipinə uyğun aparılır, mal və nəqliyyat vasitələrinin qeydiyyatı və gömrük rəsmiləşdirilməsi, gömrük əməliyyatları üzrə maliyyə fəaliyyətinin tənzimlənməsi, gömrük sahəsində hüquqpozma faktlarının qeydiyyatı, statistik məlumatların formalaşması və analitik təhlilin aparılması, risklərin idarə olunması, kadrların uçotu və sənəd dövriyyəsi Vahid Avtomatlaşdırılmış İdarəetmə Sistemi vasitəsilə həyata keçirilir. İş prosesinin avtomatlaşdırılması və idarəetmənin təkmilləşdirilməsi istiqamətində görülən işlərin nəticəsidir ki, indi gömrük orqanlarında eyniləşdirmə nömrəsinin verilməsi, sərnişin bəyannaməsinin tətbiqi, gömrük sərhəd-buraxılış məntəqələrindən keçiriləcək mallar və nəqliyyat vasitələrinin bəyan edilməsi, aparılmış idxal-ixrac əməliyyatları ilə bağlı məlumatların əldə olunması, gömrük rəsmiləşdirməsinə başlamaq üçün müraciətin və gömrük orqanlarında xidmət üçün ərizə qəbulu elektron formada aparılır.



*Şahtaxtı Gömrük İdarəsi*

Gömrük orqanlarında iş prosesinin mütəmadi izlənilməsi və mövcud vəziyyətə operativ müdaxilə edilməsi üçün müasirtipli müşahidə kameraları mövcuddur. Komitədə qurulmuş "Hədəf mərkəzi"ndə tabeli gömrük orqanlarındakı iş prosesinə 24 saat nəzarət olunur. Gömrük orqanlarında qurulmuş rentgen-nəzarət qurğuları da bu mərkəzə bağlıdır. Buradan "GPS naviqasiya sistemi" vasitəsilə avtonəqliyyat vasitələri sərhəd-keçid məntəqəsindən muxtar respublikaya daxil olduğu andan təyinat yerinə çatanadək nəzarətdə saxlanılır.

Hər bir ölkənin gömrük siyasətinin başlıca məqsədi xarici ticarətin səmərəliliyinin yüksəldilməsindən, ondan daha yüksək fayda götürülməsinə nail olmaqdan və iqtisadi təhlükəsizliyin təmin edilməsindən ibarətdir. Daxili bazarın qorunması xaricə valyuta axınının qarşısını alır, məşğulluğu təmin edir, iqtisadiyyatın davamlı inkişafına münbit şərait yaradır. Təcrübə göstərir ki, xarici ticarət fəaliyyətinin iqtisadi inkişafa xidmət etməsi üçün onun tənzimlənməsi vacibdir. Müasir dövrdə belə fəaliyyətin əsas tənzimləyicisi kimi gömrük orqanları çıxış edir. Son illər muxtar respublika iqtisadiyyatının dinamik inkişafı xarici ticarət əlaqələrinin genişlənməsinə də müsbət təsir göstərmişdir. Bu gün muxtar respublika dünyanın 56 ölkəsi ilə ticarət əməliyyatları aparır. Gömrük orqanları tərəfindən yerli istehsalçıların mənafeyinin qorunması, daxili bazarda yerli istehsal məhsullarının satışının stimullaşdırılması istiqamətində görülən işlər nəinki muxtar respublikanın ərzaq təhlükəsizliyinin həllinə, hətta ixrac potensialının artmasına da müsbət təsir göstərir.

Muxtar respublikanın dinamik sosial-iqtisadi inkişafı, ticarət əlaqələrinin artması, gömrük infrastrukturunun və maddi-texniki bazanın möhkəmlənməsi beynəlxalq əməkdaşlıq əlaqələrinin genişlənməsi üçün də münbit şərait yaradır. Naxçıvan Muxtar Respublikası Dövlət Gömrük Komitəsinin qonşu İran və Türkiyənin gömrük xidmətləri ilə mövcud olan qarşılıqlı faydalı əməkdaşlıq əlaqələri regionda ticarət və gömrük münasibətlərinin inkişafına öz müsbət təsirini göstərir.

*Dövlət Gömrük Komitəsinin əməkdaşları bundan sonra da ölkəmizin, eləcə də muxtar respublikamızın iqtisadi inkişafına öz töhfələrini verəcək, qarşıya qoyulmuş vəzifələri layiqincə yerinə yetirəcəklər.*

**Naxçıvan Muxtar Respublikası Dövlət Gömrük Komitəsinin mətbuat xidməti**

# Ev əmlakının sığortası daşınmaz əmlakın icbari sığortası qədər əhəmiyyətlidir

***Sığortanın genişlənib sürətlə yayıldığı bir dövrdə fiziki şəxslərə məxsus ev əmlakının sığortasının aktuallığı artmaqdadır. İnsanların sahib olduğu daşınmaz əmlak və ev əmlakı normal yaşayış üçün çox əhəmiyyətli olduğundan onların sığorta olunması da mühüm iqtisadi maraq kəsb edir. Çünki əmək sərf edib əmlak əldə etməklə bərabər, eyni zamanda onun qorunması da insanın əsas qayğılarından biri sayılır.***

Sığortalanmış vətəndaşlar gözlənilməz bir hadisə ilə rastlaşdıqda dəymiş maddi zərərlərin əvəzini almaqla, əslində, özlərinin sosial müdafiəsini də təmin etmiş olurlar. Beləliklə, elə vacib sahələr vardır ki, onlar həm icbari, həm də könüllü qaydada sığortaya cəlb olunmaqla insanlara bu mühüm zəmanət verilir.

Elə hadisələr vardır ki, bu zaman daşınmaz əmlakla bərabər, onun içində olan ev əmlakı da zərər görüb sıradan çıxır. İnsanlar əldə etdikləri hər şeyə zəmanət almağı üstün tuturlar. Ona görə də risklərə məruz qalmağı sevməyən, onları sığorta orqanlarına ötürməyi üstün tutanlar əmlakının zərər görməsi halında yaranmış maddi itkilərin əvəzini sığorta agentliyinin verdiyi zəmanətlə bərpa edə bilirlər. Bədbəxt hadisələr zamanı daşınmaz əmlakın özü ilə bərabər, onun içində olan qiymətli əşyalar da məhv olub sıradan çıxır. Əgər daşınmaz əmlak qanunla müəyyən olunmuş minimum məbləğdə icbari olaraq sığortalanırsa, daşınmaz əmlakın bundan yuxarı məbləğdə və vətəndaşa məxsus ev əmlakı könüllü olaraq sığortaya cəlb olunur.

Könüllü sığortanın bu növü nəyə görə vacibdir? Bu suala cavab vermək üçün bəzi gözlənilməz hadisələrin nəticələrinə baxmaq lazımdır. Elə gözlənilməz bədbəxt hadisələr vardır ki, bu zaman vətəndaşlara dəyən zərərlər daşınmaz əmlakın zərər görməsindən çox, ev əmlakının itirilməsi ilə yaranır. Məsələn, əgər zəlzələ olduqda daşınmaz əmlakın özünə zərərdəymə ehtimalı daha çoxdursa, yanğın və ya subasma hadisələri zamanı daha çox evdəki bahalı əşyalar – mebellər, xalça, fərdi kompüterlər, elektrik cihazları və sair kimi qiymətli əmlak, demək olar ki, tamamilə sıradan çıxıb istifadəsiz hala düşür. İndi məişətimizə six daxil olmuş müxtəlif əşya və cihazların növ və çeşidini də nəzərə alsaq görürük ki, ev əmlakının sığortası maddi zərərlərin dəyərinin ödənilməsi baxımından daşınmaz əmlakın icbari sığortası kimi xüsusi əhəmiyyətə malikdir.

Ev əmlakının itirilməsinə səbəb olan çox sayda riskli hadisələr saymaq mümkündür. Bunlar bədbəxt hadisələr, daşqın, fırtına, çovğun, torpaq sürüşməsi, ildırımvurma, habelə yanğın, qaz partlayışı, iri ağacların düşməsi, ağır nəqliyyat vasitələrinin çarpması, binanın əsas konstruksiyasının zərər görməsi, su, kanalizasiya, istilik sisteminin zədələnməsi, kənar mənzillərdən su daxil olması kimi ev əmlakına zərər vura bilən hallardır. Göründüyü kimi, insanların əmlakının zədələnməsi, tamamilə məhv olması və yaxud talanması ilə əlaqədar risklərin kifayət qədər çox ehtimalı vardır.

Fiziki şəxslərə məxsus ev əmlakının sığortası könüllü sığortalar qrupuna daxildir. Əgər icbari sığortalar yalnız qanunla müəyyən olunan şərtlər daxilində aparılırsa, könüllü sığortalar tərəflərin razılığı ilə müəyyən olunmuş qaydalar əsasında aparılır. Bu zaman sığortaçı tərəfindən müəyyən olunan bəzi qaydalar vardır. Belə ki, hər bir evdə olan müəyyən minimum məbləğlə (adətən, 1000 manat) ifadə olunan ev əşyasının sığortası baxış keçirilmədən sığorta etdirənin yazılı müraciəti əsasında aparılır. Əgər sığortalı şəxs daha yüksək məbləğlə (5000 manatdan yuxarı) göstərilən bir müqavilə bağlamaq istəyirsə, bu zaman hökmən şəxsin daimi yaşayış yerindəki evdə həmin əşyalara baxış keçirməklə bu müqavilə bağlanır. Ancaq istənilən halda evdəki pul məbləği, sənədlər, əlyazmalar, zinət əşyaları, habelə ev heyvanları və ev quşları bu sığorta növünə şamil olunmurlar. Çünki bunlar üçün ayrıca olaraq xüsusi bir sığorta növü müəyyən olunmuşdur. Ev əmlakının bu məqsədlə qiymətləndirilməsi zamanı isə evdəki əşyaların qruplar halında dəyərləndirilməsi və sığortalanması qaydasından istifadə olunur. Məsələn, evdəki mebel, xalça və cihazların sığortalanması zamanı onların həm qiymətləndirilməsi, həm də zərərgörmə ehtimalları nəzərə alınır. Belə ki, məişət texnikasının elektrik şəbəkəsinin nasazlığından xarab olması sığorta hadisəsi sayılmadığı halda, bu cihazların nasazlıqdan alışaraq yanması sığorta hadisəsi sayılır. Eyni qayda ilə daşınmaz əmlakın qanunla müəyyən olunmuş məbləğdən yuxarı olan hissəsi də könüllü qaydada sığortalanır. Naxçıvan şəhərində vətəndaşa məxsus daşınmaz əmlaka minimum 40 manat sığortahaqqı ödəməklə maksimum 20 min manat dəyərində icbari zəmanət verilir. Daşınmaz əmlakı daha yüksək dəyərdə sığortalamaq üçün vətəndaşın əmlakına baxış keçirilməklə könüllü sığorta tətbiq oluna bilər.

Hazırda könüllü sığortalar vətəndaşlar arasında geniş yayılmaqdadır. Bunun üçün sığortaçılar sığorta xidmətlərindən davamlı şəkildə istifadə edən insanlara müxtəlif şərtlər təklif etməklə onların tələbatlarını ödəməyə çalışırlar. Sığorta agentliyi gözlənilməz hadisələrdən dəymiş zərərin əvəzini ödəməklə sığortalı vətəndaşlara sığorta zəmanəti verir.

**Əli CABBAROV**

## Eynəli bəy Sultanov: görkəmli yazıçı-publisist və ictimai xadim

***Zəngin tarixə və qədim mədəniyyətə malik olan Naxçıvan torpağından həm də tarixin müxtəlif dövrlərində görkəmli ziyalılar, mütəfəkkir və yazıçılar çıxmışdır. Xalqımızın maariflənməsi, ədəbiyyatımızın, mədəniyyətimizin, elmimizin inkişafında yorulmadan fəaliyyət göstərən bu görkəmli şəxsiyyətlərin həyat və fəaliyyətinin öyrənilməsi, bugünkü və gələcək nəsillərə çatdırılması vacib məsələdir.***



Ümummilli liderimiz Heydər Əliyev deyirdi ki, ***"Tariximizin qədim dövrlərini cəmiyyətə, dünyaya daha geniş çatdırmaq istəyərkən, birinci növbədə, mədəniyyətimizə, mədəniyyət, ədəbiyyat xadimlərinin yaratdığı əsərlərə, tarixi-memarlıq abidələrimizə və böyük şairlərimizin, mütəfəkkirlərimizin yaradıcılığına istinad etməliyik".*** Məhz bu mənada Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Eynəli bəy Sultanovun 150 illik yubileyinin keçirilməsi haqqında" 2016-cı il 15 fevral tarixli Sərəncamı görkəmli mütəfəkkirin həyat və fəaliyyətinin yenidən tədqiq olunması ilə yanaşı, həm də ədəbiyyatımızın, mədəniyyətimizin, ümumilikdə, ictimai fikir tariximizin öyrənilməsinə xidmət edən mühüm dövlət sənədidir.

Görkəmli yazıçı-publisist və pedaqoq Eynəli bəy Sultanovun çoxşaxəli fəaliyyəti Azərbaycan ictimai fikir tarixində mühüm mərhələ təşkil edir. 1866-cı il mayın 5-də Naxçıvan şəhərində anadan olan Eynəli bəy Sultanov ilk təhsilini Naxçıvan yaza məktəbində almışdır. 1880-1886-cı illərdə "İrəvan kişi gimnaziyası"nda təhsilini davam etdirən gənc Eynəli öz bilik səviyyəsini xeyli zənginləşdirmiş, Avropa ədəbiyyatını və Qərb maarifçiliyini dərindən mənimsəmişdir. 1886-cı ildə gimnaziyanın yeddinci sinfindən çıxdıqdan sonra yüksək hazırlığı, mənəvi yetkinliyi, ədəbi istedadı nəzərə alınaraq Pedaqoji şuranın qərarı ilə ona şəhər ibtidai məktəblərində müəllimlik etmək hüququ verilmişdir.

Eynəli bəy Naxçıvanda mədəni-maarif tədbirlərinin təşkilatçısı, tərəqqisevər ziyalılar dəstəsinin ilk müəllimi və tərbiyəçisi olmuşdur. Görkəmli ziyalı gimnaziyada oxuyarkən Naxçıvanda maarifçi mühitin formalaşmasında yaxından iştirak etmiş, 1882-1883-cü illərdə burada "Ziyalı məclisi", "Müsəlman dram incəsənəti cəmiyyəti" kimi ədəbi-mədəni mərkəzlər yaratmışdır. Bu mərkəzlərdə dövrün ictimai-siyasi məsələləri tez-tez müzakirə edilir, fanatizmə qarşı mübarizənin yolları araşdırılır, məktəblər, kitabxanalar açmaq qərara alınır və digər mədəni tədbirlər həyata keçirilirdi.

Mədəniyyət tariximizə adını həm də teatr xadimi və tənqidçisi kimi həkk etdirən Eynəli bəy Sultanov Naxçıvanda teatr sənətinin təşəkkülündə mühüm xidmətlər göstərmişdir. O, qabaqcıl ziyalıları öz ətrafında toplayaraq Naxçıvan teatrının yaranmasında yaxından iştirak etmiş, bəzi tamaşalara rejissorluq, hətta aktyorluq etmişdir. O dövrdə Naxçıvanda fəaliyyət göstərən "Naxçıvan müsəlman incəsənəti və dram cəmiyyəti"nin nümayəndələri Eynəli bəy Sultanovun rəhbərliyi ilə Mirzə Fətəli Axundovun "Müsyö Jordan və dərviş Məstəli şah" əsərini tamaşaya hazırlamışdılar. Tamaşa ilk dəfə 1883-cü ildə göstərilmiş və bununla da Naxçıvan teatrının əsası qoyulmuşdur. Bu dövrdə görkəmli maarifçi Naxçıvanda kitabxana da açdırmış və Əsəd bəy Kəngərlinski ilə birlikdə ilk mətbəəni yaratmışdır.

Eynəli bəy Sultanov ədəbi-mədəni sahədəki xidmətləri ilə yanaşı, həm də dövlət strukturlarında səmərəli fəaliyyət göstərmişdir. 1886-1891-ci illərdə qısa fasilələrlə Naxçıvanda yaşayan Eynəli bəy Sultanov əsasən Qars Şəhər Şurasında mühüm işlər üzrə məmur vəzifəsində çalışmışdır. 1892-ci ildən isə Azərbaycanın İrəvan şəhərində fəaliyyətini davam etdirmiş, İrəvan quberniya idarəsində birinci dərəcəli dəftərxana xidmətçisi, 1893-cü ildən İrəvan Dairə Məhkəməsində tərcüməçi, 1894-cü ildən məhkəmə katibinin köməkçisi vəzifələrində işləmiş, hətta Dairə Məhkəməsində mülki işlər üzrə üçüncü stolun rəisi vəzifəsinə yüksəlmişdir. Daha sonra hüquq sahəsində təcrübə qazanan Eynəli bəy Sultanov prokurorluq orqanlarına işə keçirilmiş, 1897-1903-cü illərdə Dairə Məhkəməsi prokurorunun köməkçisi vəzifəsini daşımışdır. Rusdilli dövlət orqanlarında hüquq sahəsində çalışan Eynəli bəy Sultanov səlahiyyəti daxilində mənsub olduğu xalqın haqlarını müdafiə etməyə çalışmışdır. 1906-cı ildən etibarən İrəvan Dairə Məhkəməsi prokurorunun Naxçıvan üzrə köməkçisi vəzifəsini daşıyan Eynəli bəy Sultanov 1907-ci ildə İrəvan Dövlət Dumasına deputat seçilmiş, ictimai xadim kimi fəaliyyət göstərmişdir. Onun millət vəkili seçilməsində və deputat kimi fəaliyyətində hüquq sahəsində qazandığı təcrübənin mühüm rolu olmuşdur.

Hər bir xalqın ən böyük sərvəti onun malik olduğu vətənpərvər və ziyalı insanlarıdır. Eynəli bəy Sultanov da əsl ziyalı, humanist və mərhəmətli ürək sahibi idi. O, xalqının övladlarının həm savadlı, oxumuş, geniş dünyagörüşlü görmək istəyirdi, həm də onların həyat tərzinin yaxşılaşdırılması üçün əlindən gələni əsirgəmirdi. Belə ki, Eynəli bəy irsən ona çatan Göynük, Sürməlik və Sirab kəndlərindəki torpaqlarını kəndlilərə bağışlamışdır. Bu, XX əsrin əvvəllərində bəy nəslinə mənsub olan maarifçi ziyalının islahatçı düşüncəsini konkret əməli işlə həyata keçirməsi sahəsində atdığı ciddi addım idi.

Eynəli bəy Sultanovun Azərbaycan mətbuatının inkişafında böyük xidmətləri olmuşdur. Onun dövrünün ictimai-siyasi hadisələrinə işıq tutan məqalələri bu gün də öz ictimai əhəmiyyətini qoruyub saxlayır. Azərbaycan gerçəkliyini rusdilli mətbuatda geniş oxucu kütləsinə çatdıran publisist xalqını azad insanlar, xoşbəxtlər içərisində, maarifçilər arasında görmək istəyirdi. 1891-ci ildən "Novoe obozrenie" qəzetində ardıcıl olaraq ədəbi-publisist yazıları dərc olunan Eynəli bəy Sultanov 1905-1908-ci illərdə "Kaspi" qəzetinin İrəvan və Naxçıvan üzrə xüsusi müxbiri olmuşdur. Lakin o, harada yaşamasından və çalışmasından asılı olmayaraq, heç vaxt Naxçıvan mühiti ilə əlaqəni kəsməmiş, ədəbi-mədəni tədbirlərdə iştirak etməyə çalışmış, mətbuat səhifələrində "Naxçıvan xəbərləri", "Naxçıvanda nə danışırlar", "Naxçıvan əhli", "Naxçıvan publikası" rubrikalı silsilə yazılarla çıxış etmişdir.

Unudulmaz qələm sahibi bədii yaradıcılıq sahəsində də öz istedadını sınamışdır. XIX əsrin 80-ci illərindən ədəbi fəaliyyətə başlayan ədibin "Azərbaycan qızı" ("Tatarka") pyesi Naxçıvanda tamaşaya qoyulmuş, 1904-cü ildə İrəvanda kitab halında nəşr edilmişdir. Qadın azadlığı məsələsinə həsr edilən bu pyes dövrün ziddiyyətli məqamlarını, qadına olan ögey münasibəti və bu vəziyyətdən çıxış yolunu göstərən dəyərli əsərdir. Bununla yanaşı, Eynəli bəy Sultanov "Atalıq", "Səhhət – verirsən, vermirsən" kimi pyeslər, hekayələr və şeirlər yazmış, əsərlərində köhnəliyin tənqidi, maarifçi ideyaların təbliği, folklor motivlərinin tərənnümü, milli dəyərlərimizin və qədim adət-ənənələrimizin təsviri öz əksini tapmışdır. Eynəli bəy Sultanov Naxçıvan folkloru materiallarını da toplamış, müasiri olduğu yazıçı və şairlərin əsərlərinə məqalə və resenziyalar yazmış, ədəbiyyatda realizmin və vətəndaş fəallığının müdafiəçisi kimi çıxış etmişdir.

Yazıçı-publisist müxtəlif vaxtlarda ədəbi tərcümə ilə məşğul olmuş, Mirzə Fətəli Axundzadənin "Molla İbrahimxəlil kimyagər" və "Hacı Qara" komediyalarını, Sədinin "Gülüstan" kitabından nümunələri və Baba Tahirin "Allah insan məhkəməsi qarşısında" adlı ictimai ruhlu mənəvisini rus dilinə, Maksim Qorkinin "Həyatdan lövhələr", Vladimir Mayakovskinin "Bakı" şeirini, Krılovun "Tülkü və üzüm" təmsilini Azərbaycan dilinə tərcümə etmişdir.

1908-ci ildən etibarən Eynəli bəy Sultanovun həyat və fəaliyyətinin Tiflis dövrü başlanır. Ömrünün sonunadək Tiflisdə yaşayan ədib bu illərdə ədəbi-ictimai mühitin müxtəlif istiqamətlərində, xüsusilə də teatrın və mətbuatın inkişafında yaxından iştirak etmiş, pedaqoji fəaliyyətlə məşğul olmuşdur. Belə ki, Eynəli bəy Sultanov 1909-cu ildə Tiflisdə "Zubalov adına xalq evi" yanında Azərbaycan dram şöbəsinin əsas təsisçilərindən biri olmuş, 1911-ci ildə Gürcü Əyanlar teatrında təşkil olunan Azərbaycan Teatr Cəmiyyətinin bürosuna üzv seçilmişdir. Onun müxtəlif tamaşalara yazdığı resenziyalar, ayrı-ayrı aktyorlar haqqında çap etdirdiyi məqalələr Tiflisdəki Azərbaycan teatrının təşəkkülünə müsbət təsir göstərmiş, eyni zamanda onun dövrünün görkəmli teatr tənqidçisi kimi tanınmasına səbəb olmuşdur.

Eynəli bəy Sultanov 1912-1916-cı illərdə Tiflis birinci qadın gimnaziyasında rus dili dərslərini, 1917-ci ildən isə ana dilini tədris etmiş, sinif nəzarətçisi olmuş, müəllimlik vəzifəsini şərəflə yerinə yetirmişdir. Həmçinin o, Tiflisdə çıxan "Zakavkazye" qəzetinin "Müsəlman həyatı" şöbəsinin müdiri olmuş, rusdilli mətbuat orqanları ilə əməkdaşlıq etmişdir. 1921-1923-cü illərdə "Kavkazskaya kommuna" qəzetinin redaktoru, 1924-1926-cı illərdə "İşıq yolu" qəzetinin məsul katibi vəzifələrində çalışmışdır. Azərbaycanda latın qrafikalı əlifbaya keçid sahəsində də iyirmi ilə yaxın ardıcıl fəaliyyət göstərən Eynəli bəy Sultanov 1924-cü ildə Yeni Əlifba Komitəsi Tiflis şöbəsinin katibi vəzifəsini həyata keçirmiş, 1930-cu ildə bu komitənin tərcüməçisi vəzifəsindən təqaüdə çıxmışdır.

*Eynəli bəy Sultanov 1935-ci ildə Tiflis şəhərində vəfat etmişdir. Onun xalqımızın maariflənməsi və mədəni tərəqqisi yolunda göstərdiyi xidmətlər Azərbaycan ictimai fikir tarixinin şanlı səhifəsini təşkil edir. Ona görə də Eynəli bəy Sultanov kimi görkəmli mütəfəkkirlərin həyat və fəaliyyətinin öyrənməк bu gün qarşıda duran əsas vəzifələrdəndir.*

**"Şərq qapısı"**

***Naxçıvan Muxtar Respublikası Mədəniyyət və Turizm Nazirliyinin təşkilatçılığı ilə M.S.Ordubadi adına Naxçıvan Muxtar Respublika Kitabxanasında bu mövzuda dəyirmi masa keçirilib.***

## Müasir gənclik və mütaliə mədəniyyəti



Muxtar respublikanın ali təhsil müəssisələrinin, müxtəlif qurumların, kütləvi informasiya vasitələri nümayəndələrinin iştirak etdikləri tədbiri giriş sözü ilə nazirlik aparatının rəhbəri Gülbuta Babayeva açıb.

Qeyd olunub ki, kitab idrak mənbəyi, kamillik vasitəsidir və insan əsl təhsili mütaliə etməklə qazanır. Bu vasitə ilə insan öz ruhunu qidalandırır, daxilindəki mənəvi boşluğu doldurur. Kitab oxumaqla insan özünə və başqasına hörmət etməyi öyrənir, hadisələrdən baş çıxarmağı bacarır. Bütün dünyada şəxsiyyətin hərtərəfli inkişafı üçün mütaliənin böyük rolu vardır. Müasir inkişaf bugünkü biliyə arxayın olub yerində qala bilməz. Ona görə də qloballaşan dünyada həllivacib olan məsələlərdən biri də insanlarda mütaliə mədəniyyətinin daim inkişaf etdirilməsi ilə bağlıdır. Ancaq nədənsə, mütaliə getdikcə dəyişikliyə məruz qalır. Dünyanın ən böyük nüfuzlu təşkilatlarından olan YUNESKO təsdiq edib ki, hazırda mütaliəyə laqeydlik halları bütün dünyada mövcuddur.

Bildirilib ki, muxtar respublikamızda mütaliə üçün geniş imkanlar vardır. Belə ki, mütaliə həvəskarlarının ixtiyarına regionumuzda 222 kitabxana verilib. Oxucular ənənəvi kitabxanalarla yanaşı, elektron kitabxanalardan da istifadə edə bilərlər. Belə mədəniyyət müəssisələri üçün yeni binaların tikilməsi, mövcud binaların yenidən qurulması, müasir tələblərə cavab verən maddi-texniki bazanın yaradılması, kitabxana fondlarının həm tədris, həm də bədii ədəbiyyatla zənginləşdirilməsi, kitabxanalara ölkə Prezidentinin sərəncamı ilə nəşr olunan Azərbaycan və dünya ədəbiyyatı klassiklərinin, həmçinin müasir dövrün şair və yazıçılarının ən qiymətli əsərlərinin pulsuz verilməsi bunun bariz ifadəsidir.

Dünyəvi bir bəlaya çevrilən mütaliədən soyumaq halından necə xilas olmaq olar? Bütün bu məsələləri müzakirə etmək, mütaliəyə olan marağın azalma səbəblərini araşdırmaq, uşaq, yeniyetmə və gənclərdə mütaliəyə maraq oyatma yollarını aramaq üçün belə dəyirmi masaların təşkilinə böyük ehtiyac var. Naxçıvan Muxtar Respublikası Mədəniyyət və Turizm Nazirliyinin 2016-cı il üçün tərtib edilmiş iş planında rübdə bir dəfə "Müasir gənclik və mədəniyyətimiz" adlı dəyirmi masaların keçirilməsi nəzərdə tutulub.

Nazirliyin baş məsləhətçisi Pərvin Həsənovun "Mütaliə və onun əhəmiyyəti" mövzusunda çıxışı dinlənilib.

Dəyirmi masada mütaliəyə marağın azalması ilə bağlı müxtəlif səbəblər üzərində müzakirə aparılıb. Kitabxana-oxucu əlaqələrinin az olması, kitab müzakirələrinin keçirilməməsi, mütaliənin sevdirilməsində ailənin, məktəbin rolu barədə geniş danışılıb. Sosial şəbəkələrdən düzgün olmayan istiqamətdə istifadə hallarının genişləndirilməsinin, günü-gündən artan telekanallarda özünə yer alan bəzi verilişlərin də mütaliəyə mənfi təsiri vurğulanıb. Bu problemin yaranmasında kitabxanaçı kadrların qeyri peşəkarlığı da diqqətə çatdırılıb.

Dəyirmi masada təkliflər səsləndirilib və nazirliyin gələcəkdə həyata keçirəcəyi tədbirlər barədə söhbət gedib.

Tədbirin sonunda kitabxanada təşkil edilmiş sərgiyə baxış olub.

**Xəbərlər şöbəsi**

### Yeni nəşrlər

## Turizmə dair yeni dərs vəsaiti

***Bu günlərdə "Naxçıvan" Universitetinin baş müəllimi, iqtisad üzrə fəlsəfə doktoru Əli Cabbarovun "Turizmin iqtisadi əsasları" adlı yeni dərs vəsaiti çapdan çıxıb. Bu mövzuda ilk dəfə dərc olunan kitabda iqtisadi bir hadisə kimi turizmin mahiyyətindən, onun inkişaf amillərindən, turizmin cəmiyyətin sosial-iqtisadi həyatında və humanitar inkişafdakı rolundan bəhs olunur.***




Müasir dünyada turizmin inkişaf səviyyəsi, bazar iqtisadiyyatı şəraitində rekreasiya tələbatının ödənilməsində bir biznes sahəsi kimi turizmin əhəmiyyəti dərs vəsaitində geniş şərh olunur. Turizm həm də tarix, mədəniyyət, ekoloji vəziyyətlə sıx əlaqəli sahədir. Buna görə də onun dayanıqlılığı, iqtisadiyyatın digər sahələri ilə əlaqəli şəkildə inkişaf etdirilməsi, turizm ehtiyatlarının potensialından maksimum istifadə olunması məsələləri həmişə aktualdır. Kitabda həmçinin bir sahibkarlıq sahəsi kimi turizm bazarının xüsusiyyətlərinə, xüsusi növ turizm sahibkarlığının yaradılmasının əhəmiyyətinə geniş yer verilib. Dərs vəsaitində turizm bazarının təşəkkül tapmasında dövlət tənzimlənməsinin mahiyyəti izah olunub.

Dərs vəsaiti müasir tələblər səviyyəsində işlənilib, təqdim olunan hər mövzuya dair tələbələrin biliklərini sınaması üçün yoxlama suallar və testlər təqdim olunub. Kitabda həmçinin "Turizm haqqında" Azərbaycan Respublikasının Qanunu, Ümumdünya Turizm Təşkilatının müəllif tərəfindən Azərbaycan dilinə tərcümə olunmuş sənədləri və çox işlənən turizm terminləri də verilib. Kitabdan turizm ixtisası üzrə təhsil alan tələbələr, turizm sahəsində çalışan mütəxəssislər, o cümlədən turizm və səyahət məsələləri ilə maraqlananlar faydalana bilərlər.

Kitab "Naxçıvan" Universitetinin Elmi Şurasının qərarı ilə dərc olunub.

**Elbrus İSAYEV**
***tarix üzrə fəlsəfə doktoru, dosent***

# Övladlarımızın hər istəyini yerinə yetirməliyikmi?

*Valideynlərin başlıca vəzifələrindən biri övladların tərbiyəsidir. Belə bir müdrik deyim var: uşaq əzizdir, tərbiyəsi ondan da əziz.*

Tanınmış bir ərəb mütəfəkkirinin fikrincə, "Hava və qidadan sonra vücudumuzun ən çox ehtiyac duyduğu üçüncü şey təlim-tərbiyədir. Tərbiyə əqlimizin ilkin özəyidir". Bəli, bu gün tərbiyə insanın xoşbəxtliyinin, mənəvi aləminin zənginliyinin, milli ruha bağlılığının təminatçısıdır. Tərbiyənin düzgün qurulması, başlanğıcı ailədən, analardan başlanır. Biz övladımızı hansı ruhda, hansı əqidədə yetişdiririksə, gələcəyimiz o istiqamətdə köklənmiş olacaq.

Hər bir uşaq fərd kimi dünyaya gəlir. Onun şəxsiyyətə çevrilməsində ailənin rolu böyükdür. Fərdin şəxsiyyətə çevrilməsi üçün yüksək mənəvi keyfiyyətlər əldə etməsi vacibdir. Bu mənəvi keyfiyyətlərin təməli ailədə qoyulur. Uşağın formalaşmasına irsiyyət, yəni valideynlərdən irsən keçmiş xüsusiyyətlər və sosial mühit, yəni onu əhatə edən maddi-mənəvi aləmin mühüm təsiri var. Uşaq daim valideynlər tərəfindən nəzarətdə saxlanılmalı, sevgi və nəvazişlə böyüdülməli, onun fikir və düşüncələrinə hörmətlə yanaşılmalıdır. Uşağın yaxşı, təqdirəlayiq davranış və hərəkətləri mütləq rəğbətlə qarşılanmalı, təriflənməli, yanlış hərəkətləri isə məzəmmət edilmədən tənbehlənməlidir. Məzəmmət olunarsa, uşaq qorxudan yalan danışmağa meyil edəcəkdir.

Uşaqlara sosial mühitin qayda-qanunları sakit və anlaya biləcəyi tərzdə izah edilməlidir. Evdə icazə alma vərdişi formalaşmalı, uşaq başqasına aid əşyanı icazəsiz götürməməlidir. İcazə almadan götürdüyü əşyanı yerinə qoyması üçün onu cəzalandırmaq, yaxud fiziki cəza tətbiq etmək düzgün deyil. Bu zaman uşaq daha da maraqlı olur, gizlin işlər görməyə başlayır. Halbuki nə üçün götürməməlidir izah olunarsa, məsələn: bu kitab qardaşınındır, bu qələm atanındır, sənə aid deyil, sənin oyuncağını bacın icazəsiz götürsə, nə edərsən və sair kimi izahatlarla daha aydın anlayar.

Uşağı başqalarının yanında təhqir etmək, mənliyini incitmək olmaz. Bu zaman özünə hörmət etməyən, şəxsiyyətini yüksək tutmayan, çəkingən, özünə inamsız şəxsiyyətin təməlini qoymuş olarıq. Uşaqlar hər yaşda onlara olan münasibətin səmimi, yaxud qeyri-səmimi olduğunu anlamağa qadirdirlər. Uşaqla rəftarımızda səbirli, anlayışlı, gülərüzlü olmalıyıq. Dəfələrlə müşahidə etmişik ki, lap körpə vaxtlarında qığıldamağa başlayan uşağın üzünə təbəssümlə baxanda, o qol-qanad açır, gülümsəyir, əksinə qaradinməzlik göstərəndə məyuslaşır.

Müşahidələr və araşdırmalar göstərir ki, hər istəyi yerinə yetirilən uşaqların xoşbəxt olacağı düşüncəsi yanlışdır. Uşağın hər hansı bir şeyi (oyuncaq, geyim və sair) valideyndən təkid və həyəcanla istəməsinə baxmayaraq, əldə etdikdən qısa müddət sonra ona marağı sönür, başqa istəkləri meydana çıxır.

Valideynlər bilməlidirlər ki, övladlarının hər istəyini yerinə yetirmək, əslində, təlim-tərbiyədə yol verilən ən böyük nöqsandır. Həyatın çətinlikləri ilə mübarizə aparmağı bacaran, cəmiyyətə faydalı olan, hərtərəfli inkişaf etmiş övlad yetişdirmək kimi ali məqsədə çatmaq üçün uşağa bəzi qanun, qaydalar izah olunmalıdır.

Bəzən illərlə övlad arzusu ilə yaşayan valideynlər sahib olduqları övladlarının bir sözünü iki etməmək üçün çalışırlar. Valideyn vara, yoxa baxmadan uşağın istədiyini yerinə yetirir. Bu, çox səhv və gələcəyi fəsadlı tərbiyə növüdür. Belə valideynlər düşünmürlər ki, bu gün bahalı oyuncaq istəyən uşaq sabah bahalı telefon, kompüter, maşın və sair istəyəcək. Gəlin görək, bu istəkləri qarşılamaq üçün büdcə münasibdirmi? Kiçik yaşında uşaq mağazadan bir konfet götürür, ikincini götürəndə izah etmək lazımdır ki, birini seçməlisən, yalnız birini ala bilərik. Onun anlayacağı tərzdə məişət qayğılarından söhbət etmək lazımdır. Məsələn, afərin qızıma, konfetin birini götürdü, o birinin puluna çörək aldıq və sair. Belə böyüdülən uşaqda əqidə, iradə, nə istədiyini bilmək kimi keyfiyyətlər formalaşır. Həmin əqidə ki, insana öz həyat yolunu tam aydınlığı ilə müəyyənləşdirmək, təsəvvür etmək imkanı verir. Yaxud digər keyfiyyət olan iradə insanın qarşısına qoyduğu məqsədinə nail olmaq üçün onun fəaliyyəti zamanı rastlaşdığı çətinlikləri aradan qaldırma qabiliyyətidir. Kiçik yaşlarından aza qane olmağı bacaran uşaq qənaətcil, anlayışlı, gözəl ailə başçısına çevrilir. Başqa sözlə, gələcəyin valideynlərini özümüz formalaşdırıb gələcək ailələri ya xoşbəxt, azı, çoxu bilən kimi yetişdirir, ya da bədbəxt edirik. Bu gün gənc nəsil bizdən maddi imkanı nəzərə almadan nə isə tələb edirsə və onu yerinə yetiririksə, bu, öz günahımızdır.

Heç bir çətinliklə üzləşməyən, hər istədiyini çətinlik çəkmədən əldə edən insanda yaşamaq eşqi, qədirbilmə anlayışı olmur. Maddi-mənəvi hər şeyi əldə edən şəxs artıq başqa istiqamətlərə meyil edir. Daim bir maraq nöqtəsi axtarır.

Uşaqların tərbiyəsində nizam-intizamın mühüm yeri var. Nizam-intizam qaydaları təkcə uşaqlarda deyil, böyüklərdə də özünə hörmət, özünə güvən hissini artırır. Hədəf uşağın özünə nəzarət etməyi öyrənməsidir. Valideynin köməyi olmadan müəyyən çətinliyi aradan qaldırdıqda uşaqlarda özünə inam hissi artır və onlar özlərini daha sərbəst və müstəqil hiss etməyə başlayırlar. Müəyyən bir işi müstəqil görmə bacarığı yaşamaq uğrunda mübarizə mexanizmini işə salır, uşağın özünü təsdiq hissini artırır. Beləliklə, uşağın ərköyünlüyü tədricən aradan qaldırılır. Əgər uşağın istəyi valideynin maddi vəziyyətinə və həyat tərzinə uyğun deyilsə, onun diqqətini başqa istiqamətə yönəltməyə çalışmaq lazımdır. Uşaq sevgi və hörmət çərçivəsində böyüməli, bunun bərabərində valideynlər fikirlərində sabit olmalı, yeri gələndə qərarından dönməməlidirlər. Bu, uşağın tərbiyəsi, gələcəyi üçün çox önəmlidir. Uşağına "yox" sözünü öyrədə bilmədiyindən gileylənən bir çox valideynin məhz əsas problemi qeyri-sabit mövqeyi və davranışlarıdır.

Doğrudur, uşağın tərbiyəsində qaydaların və məhdudiyyətlərin qoyulması çox vacibdir. Özbaşınalıq uşağın emosional inkişafına çox mane olur, həmçinin uşaqda həmişə özünün haqlı olması hissini yaradır. Bu da zamanla eqoistlik və özünübəyənmə hissinin formalaşmasına gətirib çıxarır. Belə mənfi xüsusiyyətlərə xas olan uşaq öz yaşıdları ilə konfliktlər yaşayır, müəllimlərlə ümumi dil tapa bilmir, qrup işlərinə qoşulmaqdan qaçır. Belə uşaqların, adətən, dostları olmur, onlar tənhalığa məhkum olurlar.

Uşağa qarşı qəddarlıq və fiziki cəza tətbiq etmək səhv metoddur. Bu, uşağın ata-anaya qarşı münasibətinə zərər gətirir, hətta bəzən nifrət yaradır. Həmçinin uşaqlar bu cür yanlış yanaşma nəticəsində passiv, özünə inamsız fərdlər olaraq yetişirlər. Həddən artıq sərbəst və limitsiz imkanlar yaratmaq da faydalı deyil, hətta təhlükəlidir. Bu cür şəraitdə böyüyən uşaqlar sosial həyata uyğunlaşmaqda çətinlik çəkirlər.

Bəzən valideynlər uşağı həyata hazırlamaq məqsədilə lazımsız dərəcədə qatılıq edirlər. "Biz çox çətin şəraitdə yaşadıq, sən də azla kifayətlənməyi öyrən" deyərək uşağı yaşıdlarından çox geri salaraq haqsızlıq edirlər. Əgər nəyəsə qənaət ediləcəksə və ya alınmayacaqsa, bunun məntiqli bir səbəbi olmalıdır və uşağa istədiyini hazırda həyata keçirməyin mümkünsüzlüyü izah edilməli, həmçinin yerinə yetirilməyəcək vədlər verilməməlidir.

*Şəxsiyyəti formalaşdıran amillər ailə və sosial mühitdir. Əsası ailədə qoyulan tərbiyənin yaxşısı da, pisi də həm cəmiyyətə, həm də ailədaxili münasibətlərə təsirsiz ötüşmür. Unutmamalıyıq ki, yaxşı tərbiyə həm ailə üçün, həm də cəmiyyət üçün əvəzolunmaz nemətdir.*

**Müşərrəf BAĞIROVA**
***Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin əməkdaşı***

# Sağlamlıq haqqında tibbi arayış

## *Bu vacib sənədi almağa niyə məsuliyyətsizliklə yanaşırıq?*

***Hər birimizin şəxsi işində vacib sayılan sənədlərdən biri də tibbi arayış olur. "Əhalinin sağlamlığının qorunması haqqında" Azərbaycan Respublikasının Qanununda göstərilir ki, yoluxucu və peşə xəstəliklərinin qarşısının alınması məqsədilə müvafiq icra hakimiyyəti orqanı tərəfindən təsdiq edilmiş siyahı əsasında bəzi peşə sahibləri işə qəbul edilərkən və işlədiyi müddətdə məcburi dövri tibbi müayinədən keçməlidirlər. Bəs sağlamlıq haqqında tibbi arayışlar necə əldə edilir? Əslində, bu mövzuya toxunmağım səbəbsiz deyil. Bu günlərdə qarşılaşdığım bir hadisə məni bu mövzunu qələmə almağa məcbur etdi.***

Yaxın adamlardan birinə işə girmək üçün tibbi arayış lazım idi. Məlum oldu ki, bu insan tibbi yoxlamadan keçməyərək "hazır" tibbi arayış əldə edib. Onun səhiyyə ocağına getmədən və müayinələrdən keçmədən bu arayışı əldə etməsi məsələnin bir tərəfidir. Maraqlıdır ki, bu arayışı təqdim edən, müxtəlif müayinələrin nəticəsi qrafasında "sağlam" sözünü yazan səhiyyə işçisi məsuliyyətini dərk edirmi? Müşahidələrimiz onu deməyə əsas verir ki, bu halla səhiyyə müəssisələrinin əksəriyyətində rastlaşmaq olar. Məlumdur ki, müəllimlər, tibb işçiləri, sürücülər, ərzaq istehsalı ilə məşğul olan işçilər və başqa peşə sahibləri işlədiyi müddətdə məcburi dövri tibbi müayinə olunmalıdırlar. Ancaq nədənsə, bu işə də biganə yanaşılır. Belə peşə sahibləri ərazi prinsipi ilə yaşadıqları məntəqələr üzrə rentgen, dəri-zöhrəvi, poliklinika və bağırsaq infeksiyalarına görə tibbi müayinələrdən keçməlidirlər. Müəssisə rəhbərləri işçilərini dövri tibbi müayinə haqda arayışı olmadıqda işə buraxmamalıdırlar. Bəzən hər hansı bir səbəbdən müayinədən yayınma halları olur. Bəzən də elə olur ki, müayinə edilmədən qeydiyyat aparılır. Bəs bu işdə ziyalılarımız, müəllimlərimiz niyə məsuliyyətsizlik edirlər? Onların da özü bu işdə maraqlı olmalıdırlar. Çünki təhsilli gənclər yetişdirməklə yanaşı, həm də sağlam gənclər böyütməliyik. Ona görə də hər gün onlarla şagirdlə ünsiyyətdə olan müəllim ilk olaraq özünün sağlamlığına ciddi diqqət yetirməlidir. Bunun üçün də muxtar respublikamızda hər cür şərait var. Ola bilər ki, müəllim hər hansı bir xəstəliyin daşıyıcısıdır, bəlkə özünün də bundan xəbəri yoxdur. Ancaq müayinə zamanı bu, ortaya çıxa bilər və qarşısı tezliklə alınar. Beləliklə də həm vətəndaşın sağlamlığı təmin olunar, həm də infeksion və parazitar xəstəliklərin məktəblilər arasında yayılmasının qarşısı alınar. Dünyanın müxtəlif ölkələrində bəzi infeksion xəstəliklərin yayıldığı bir dövrdə bu məsələyə daha məsuliyyətlə yanaşmalıyıq.

Müayinələrə gəldikdə isə vətəndaşı müayinədən keçirməmiş sağlamdır deyə arayış vermək həkimin öz vicdanına qalıb. Axı həkimlik olduqca çətin, məsuliyyətli, eyni zamanda şərəfli peşədir. Bu ağxalatlı peşə sahibləri həmişə insanların hörmətlə yanaşdıqları, ehtiram bəslədikləri şəxslər olmuşlar. Çünki onlar ən qiymətli varlıq sayılan insan sağlamlığının keşiyində dururlar. Unutmaq olmaz ki, yalnız sağlam olan bir insan xalqın xeyrinə qurub-yaratmaq üçün özünün yaradıcı imkanlarından tam istifadə edə bilər. Tibbi arayış almaq istəyən insanlar özləri də tibbi müayinədən keçməyə maraqlı olmalıdırlar. Onsuz da biz bədən üzvlərimizdən biri ağrımasa, həkimə müraciət etmirik. Heç olmasa, tibbi arayış alarkən müayinədən keçək ki, sağlamlıqla bağlı problemimiz ortaya çıxsın, müalicə olunaq, həyatımızın bundan sonrakı dövrünü sağlam yaşayaq.

Muxtar respublikamızda səhiyyənin inkişafı istiqamətində görülən işlər həkim və orta tibb işçilərinə səhiyyə xidmətinin səviyyəsini yüksəltməyə şərait yaradıb. Səhiyyə işçiləri bu şəraitdən səmərəli istifadə edərək insanların sağlamlığı keşiyində durmağa borcludurlar. Bunu onlardan ən azı yaradılan şərait və Hippokrat andı tələb edir.

***Gəlin bu barədə düşünək!***

**Sara ƏZİMOVA**

## *İdman xəbərləri*

# Karate-do Federasiyasının yetirmələri beynəlxalq turnirdən medallarla qayıdıblar

Naxçıvan Muxtar Respublikasında idmançılar üçün yaradılan şərait mütəmadi olaraq onların uğur qazanması ilə nəticələnir. Son dövrlər idmançılarımızın beynəlxalq arenalarda Azərbaycan bayrağını dalğalandırmaları artıq ənənə halını alıb. İran İslam Respublikasının Astara şəhərində keçirilən karate-do üzrə beynəlxalq turnirdə Naxçıvan Muxtar Respublikası Karate-do Federasiyasının 4 yetirməsi də iştirak edib. 16 komanda və 200-dən çox idmançının iştirak etdiyi beynəlxalq turnirdə karateçilərimiz 3 medal qazanıblar. Belə ki, 27 kiloqram çəki dərəcəsində Vüsal Seyidov bütün rəqiblərinə qalib gələrək qızıl medal qazanıb. 35 kiloqram çəki dərəcəsində İmran Həsənov və 50 kiloqram çəki dərəcəsində Sərxan Məmmədov isə yalnız final görüşlərində məğlub olaraq gümüş medalla kifayətləniblər.

Sonda idmançılarımıza təşkilatçılar tərəfindən diplom, medal və kubok təqdim edilib.

# Məşqçi-müəllimlər üçün növbəti seminar



*Dünən Naxçıvan şəhərindəki İlham Əliyev adına Olimpiya-İdman Kompleksində məşqçi-müəllimlər üçün karate-do üzrə seminar keçirilib.*

Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi ilə Karate-do Federasiyasının birgə təşkil etdiyi seminarda muxtar respublikanın şəhər və rayonlarında bu növü təbliğ edən məşqçi-müəllimlər iştirak ediblər. Federasiyanın sədr müavini Nəriman Quliyev ilk olaraq qaydalar barədə məşqçi-müəllimləri məlumatlandırıb. Daha sonra yeni qaydalar və karate-do idman turnirlərində hakimlik zamanı məşqçilər və idmançıların nələrə əməl etməli olduqları praktik olaraq göstərilib. Xüsusilə idmançıların rəqibə zərər yetirməməsi üçün hansı fəndləri necə tətbiq etməli nümayiş etdirilib.

Sonda qeyd edilib ki, qarşıdakı aylarda idmançılar üçün də belə seminar təşkil olunacaq.

# Atıcılıq birinciliyi

Xocalı soyqırımının 24-cü ildönümü ilə əlaqədar Şərur Rayon Gənclər və İdman İdarəsi, Təhsil Şöbəsi və Naxçıvan Muxtar Respublikası Atıcılıq Federasiyasının Şərur rayon bölməsinin birgə təşkilatçılığı ilə atıcılıq üzrə məktəblilər arasında birincilik keçirilib. Yarışda 12 məktəbin 36 şagirdi iştirak edib. Yarışın nəticəsinə görə, Şərur şəhər 2 nömrəli tam orta məktəbin komandasının üzvləri daha sərrast olublar. Uşaq-Gənclər İdman Məktəbinin və Şərur şəhər 1 nömrəli tam orta məktəbin komandaları isə digər iki pillədə qərarlaşıblar.

**Ceyhun MƏMMƏDOV**


ŞƏRQ qapısı
Baş redaktor:
TURAL SƏFƏROV

Ünvan: AZ-7000,
Naxçıvan şəhəri, "Təbriz" küçəsi, 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Sara Əzimova
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1000. Sifariş № 164